Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 7 iyul tarixli, 114 nömrəli qərarı ilə təsdiq edilmişdir

**Qanunsuz dövriyyədən müsadirə edilmiş, lakin dərman preparatları şəklində olduğuna və tibbi məqsədlərlə istifadə oluna biləcəyinə görə məhv edilməsi məqsədəuyğun olmayan narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi üçün təhvil verilməsi**
**QAYDASI**

1. Qanunsuz dövriyyədən müsadirə edilmiş, lakin dərman preparatları şəklində olduğuna və tibbi məqsədlərlə istifadə oluna biləcəyinə görə məhv edilməsi məqsədəuyğun olmayan narkotik vasitələrin və psixotrop maddələrin nümunələri, müsadirə etmiş orqan tərəfindən, yoxlanılmaq üçün Səhiyyə Nazirliyinə təqdim edilir.

2. Analiz üçün göndərilən narkotik vasitələrin və psixotrop maddələrin nümunələrinin miqdarı aşağıdakı kimi müəyyənləşdirilir:

toz şəklində 2 qr;

həb şəklində 20 ədəd;

ampula şəklində 10 qr.

3. Səhiyyə Nazirliyinin Mərkəzi Nəzarət Laboratoriyası tərəfindən yoxlanılmış narkotik vasitələrin və psixotrop maddələrin nümunələri tibbi məqsədlərlə istifadə üçün yararlı hesab olunarsa, bu barədə Səhiyyə Nazirliyi narkotik vasitələri və psixotrop maddələri müsadirə etmiş orqana məlumat verir.

4. Qanunsuz dövriyyədən müsadirə edilmiş, lakin dərman preparatları şəklində olduğuna və tibbi məqsədlərlə istifadə oluna biləcəyinə görə məhv edilməsi məqsədəuyğun olmayan narkotik vasitələr və psixotrop maddələr müsadirə etmiş orqan tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş qaydada Səhiyyə Nazirliyinə təhvil verilir.

Yalnız bundan sonra həmin narkotik və psixotrop maddələrdən Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların saxlanılması, alınması, satılması, əldə edilməsi, bölüşdürülməsi, buraxılması, daşınması, göndərilməsi, onlardan istifadə edilməsi, habelə narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, saxlanılması və onların dövriyyəsi ilə əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş digər əməliyyatların keçirilməsi qaydasına uyğun olaraq, tibb müəssisələrində istifadə oluna bilər.

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2998-2999.**